https://doi.org/10.59849/3006-1342.2024.2.58
UOT 902

*C.V.Bağırzadə*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail: cavid.bagirzade@gdu.edu.az*
*https://orcid.org/0009-0000-8358-6497*

# NAXÇIVAN BÖLGƏSİNİN İLK ORTA ƏSR ABİDƏLƏRİNİN TARİXİ-ARXEOLOJİ TƏDQİQİNƏ DAİR

*Azərbaycanın qədim diyarı olan Naxçıvan bölgəsi ilk orta əsrlər dövründə Albaniyanın mühüm hissəsi olmuşdur. Erkən orta əsrlər dövründə bu bölgədə ölkənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan vilayəti mövcud idi. Naxçıvan bölgəsi Albaniyanın Sünik əyalətinin hüdudları daxilində idi. Albaniyanın bu vilayətinin ölkənin digər vilayətləri arasında ilk orta əsrlər dövründə sıx iqtisadi-ticarət və mədəni əlaqələr mövcud olmuşdur. Alban tarixçisi Moisey Kalankatuklu Sünikdən bəhs edərkən, əvvəlcə ayrıca bir müstəqil inzibati məkan kimi qələmə verir, daha sonrakı hadisələrlə bağlı xatırlayanda isə Albaniyanın əyalətlərindən biri kimi təqdim edir. Alban Arşakilərin hakimiyyətinə son qoyulduqdan sonra, Sasani mərzbanlığı dövründə Albaniyada üç mərzbanlıq mərkəzi və həmin mərkəzdə oturan mərzbanın idarə etdiyi ərazi olmuşdur ki, onlardan biri də mərkəzi Naxçıvan və Dəbil şəhərləri olmuş Sünik mərzbanlığı idi.*

*Naxçıvan ərazisində ilk orta əsrlər dövrünə aid yaşayış yerləri Şərur rayonunun Havuş kəndi yaxınlığında, Axura kəndi yaxınlığında Albantəpə, Axura Kültəpəsi, Püsyan və Qoşatəpə yaşayış yeri abidələrində müəyyən olunmuşdur. Bundan başqa Culfa rayonunun Bayəhməd kəndi yaxınlığında II Bayəhməd yaşayış yeri, Milax kəndi yaxınlığında Zoğala yaşayış yeri, Saltax kəndi yaxınlığında Yeycə yaşayış yeri, Ləkətağ kəndi yaxınlığında Kolasu yaşayış yerlərində ilk orta əsrlər dövrünə aid arxeoloji materiallar aşkar edilmişdir. Şahbuz rayonu ərazisində Külüs kəndi yaxınlığında eyniadlı yaşayış yeri, Ağbulaq kəndi yaxınlığında Qızıltapan abidələri ilk orta əsrlər dövrünə aid edilmişdir. Naxçıvan bölgəsinin ilk orta əsrlər yaşayış yerlərinin qeydə alınmasında, onlarda arxeoloji tədqiqatların həyata keçirilməsində, bütövlükdə tarixi-arxeoloji tədqiqində Vəli Baxşəliyevin, Əziz Novruzlunun, Vüsalə Qasımlının mühüm xidmətləri olmuşdur.*

*Açar sözlər:* Qafqaz Albaniyası, Naxçıvan, ilk orta əsr yaşayış yerləri, tarixi-arxeoloji tədqiqat

## *Giriş*

Azərbaycanın qədim diyarı olan Naxçıvan bölgəsi ilk orta əsrlər dövründə Albaniyanın mühüm hissəsi olmuşdur. Erkən orta əsrlər dövründə bu bölgədə ölkənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayan vilayəti mövcud idi. Naxçıvan bölgəsi Albaniyanın Sünik əyalətinin hüdudları daxilində idi [5, s. 90-92, s. 94-95; 11, s. 39-41]. Albaniyanın bu vilayətinin ölkənin digər vilayətləri arasında ilk orta əsrlər dövründə sıx iqtisadi-ticarət və mədəni əlaqələr mövcud olmuşdur. Təsadüfi deyildi ki, ölkə paytaxtı Bərdədən başlayaraq Dəbilə gedən ticarət-karvan yolu, eləcə də Arsak vilayəti ilə qonşuluqda yerləşən Sünik vilayəti arasındakı yollar ilk orta əsrlər dövründə bu bölgələrdə mövcud olmuş yaşayış məntəqələrini bir-biri ilə əlaqələndirmiş, ölkənin göstərilən vilayətlərinin yaşayış məntəqələri arasında hər tərəfli əlaqələrin formalaşmasını və inkişaf etməsini şərtləndirmişdir.

İlk orta əsrlər dövründə əhalinin sıx məskunlaşdığı və çoxlu sayda müxtəlif yaşayış məntəqələrinin mövcudluğu baxımından Naxçıvan bölgəsi diqqəti cəlb edir. Bu bölgə müxtəlif tarixi dövrlərə aid abidələrlə yanaşı eyni zamanda ilk orta əsrlər dövrünə aid abidələrin, başqa sözlə, yaşayış yerlərinin zənginliyi ilə də seçilir. Naxçıvan bölgəsində ilk orta əsrlər dövrünə aid abidələrdə aparılmış arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət nümunələri və istehsal xüsusiyyətləri ölkənin digər vilayətləri arasındakı oxşarlıq bu dövrdə Albaniyanın daxilində sənətkarlığın inkişafının ümumölkə səviyyəsində eyniliyini göstərməklə yanaşı, həm də vilayətlər arasında daxili iqtisadi və mədəni əlaqələrin sıx və geniş olmasından xəbər verir.

**1.Naxçıvanın ilk orta əsrlər dövrü tarixi-coğrafiyası haqqında.** Hər bir ölkə lokal təbii-coğrafi şəraiti, təsərrüfatının, maddi və mənəvi mədəniyyətinin özünəməxsusluğu ilə fərqlənən etnoqrafik əyalətlərə bölünür. Bəzən inzibati ərazi bölgüsü etnoqrafik əyalətlərin sərhədi ilə eyniyyət təşkil edir, bəzən də etnoqrafik əyalətlər müxtəlif inzibati ərazi sərhədləri ilə müxtəlif hissələrə ayrılır. Tarixi etnoqrafik əyalətlərə bölünmə Azərbaycan üçün də qanunauyğun hal olmuşdur. Qarabağ, Şirvan, Naxçıvan Azərbaycanın tarixi etnoqrafik əyalətləridir [3, s.7]. Azərbaycanın digər tarixi-etnoqrafik vilayətləri kimi Naxçıvan etnoqrafik əyalətinin özünəməxsusluğu olsa da, onun ümumazərbaycan maddi və mənəvi mədəniyyətinin formalaşmasında və inkişafında lap qədimlərdən mühüm rolu olmuşdur və bütün bunlar ölkənin daxili vilayətlərinin bir-biri ilə hərtərəfli əlaqələrin mövcudluğu fonunda baş verirdi.

İlk orta əsrlər dövründə müasir Naxçıvan bölgəsi Albaniyanın mühüm əyalətlərindən biri olan Sünikin tərkibində olmuşdur. Alban tarixçisi Moisey Kalankatuklu Sünikdən bəhs edərkən əvvəlcə ayrıca bir müstəqil inzibati məkan kimi qələmə verir, daha sonrakı hadisələrlə bağlı xatırlayanda isə Albaniyanın əyalətlərindən biri kimi təqdim edir [M.Kalankatuklu, I, 14; II, 7, 8, 9, 16, 18, 19, 29; III, 16]. Belə bir nəticəyə gəlmək olar ki, Alban Arşakilərin hakimiyyətinə son qoyulduqdan sonra, Sasani mərzbanlığı dövründə Albaniyada üç mərzbanlıq mərkəzi və həmin mərkəzdə oturan mərzbanın idarə etdiyi ərazi olmuşdur: mərkəzi Şirvan şəhəri olan Şirvan (erkən Şirvanşahlar, VI əsr. Daha geniş bax: Aşurbəyli S.B. Şirvanşahlar dövləti. (Bakı: Avrasiya Press, 2006, 416 s.) s. 31; s. 50-57. – C.B.), mərkəzi Naxçıvan və Dəbil şəhərləri olmuş Sünik və mərkəzi Bərdə şəhəri olmuş Arran mərzbanlığı. Belə hesab etmək olar ki, Sasani mərzbanlığı dövründə Sünikin yenə də mərkəzi, eləcə də mərzbanlığın iqamətgahının yerləşdiyi şəhər Naxçıvan olmuşdur. Məhz bu səbəbdən burada, ayrı-ayrı Sasani şahənşahlarının adına (məhz Sasani mərzbanlığı yaradıldığı VI əsrdən etibarən) sikkələr kəsilmişdir. Naxçıvanda Sasani zərbxanasının fəaliyyət göstərməsi buranın siyasi-inzibati əhəmiyyət daşıması ilə yanaşı, iqtisadi-ticarət əhəmiyyətini də göstərir.

Tədqiqatlardan da məlumdur ki, Naxçıvan Albaniyanın mühüm əyalətlərindən biri olan Sünikin mərkəzi olmuşdur. VIII əsr müəllifi Stepannos Orbelyana görə Erincak (Erincak toponiminin Əlincə adı ilə qohumluğu və ya eyni mənşəli olması ehtimalını nəzərdən qaçırmaq olmaz. – C.B.) və Qoxtan Sünikin vilayətləri sayılırdı. Sünikin mərkəzi isə Naxçıvan idi. Qoxtan vilayətinin müasir Ordubad rayonu ərazisini əhatə etdiyi hesab edilir [5, s. 98; 11, s. 41].

**2.Naxçıvan bölgəsinin ilk orta əsr abidələrinin öyrənilməsi haqqında.** Naxçıvan bölgəsinin ilk orta əsr abidələrinin öyrənilməsinə XIX əsrin sonları-XX əsrin əvvəllərində maraq göstərilsə də, daha geniş şəkildə 1980-1990-cı illərdə abidələr qeydə alınmış, arxeoloji qazıntı işləri həyata keçirilmişdir. Naxçıvan ərazisində ilk orta əsrlər dövrünə aid yaşayış yerləri Şərur rayonunun Havuş kəndi yaxınlığında, Axura kəndi yaxınlığında Albantəpə, Axura Kültəpəsi, Püsyan və Qoşatəpə yaşayış yeri abidələrində müəyyən olunmuşdur. Bundan başqa, Culfa rayonunun Bayəhməd kəndi yaxınlığında II Bayəhməd yaşayış yeri,

Milax kəndi yaxınlığında Zoğala yaşayış yeri, Saltax kəndi yaxınlığında Yeycə yaşayış yeri, Ləkətağ kəndi yaxınlığında Kolasu və sair yaşayış yerlərində ilk orta əsrlər dövrünə aid arxeoloji materiallar aşkar edilmişdir. Şahbuz rayonu ərazisində Külüs kəndi yaxınlığında eyniadlı yaşayış yeri, Ağbulaq kəndi yaxınlığında Qızıltapan abidələri ilk orta əsrlər dövrünə aid olunmuşdur.

Şərur rayonunun Axura kəndi yaxınlığında yerləşən Albantəpə yaşayış yeri Əziz Novruzlu tərəfindən 1979-cu ildə qeydə alınmış, burada 1979-1985-ci illərdə tədqiqat işləri aparmışdır [2, s. 14; 4, s. 28-29; 9, s. 18; 10, s. 8;]. Albantəpə abidəsi e.ə. VII-e.II-III əsrlər dövrünə aid edilmişdir [2, s.16; 10, s.10]. Albantəpədə yaşayışın e.ə. I əsrdək davam etdiyi də göstərilmişdir [9, s. 20]. Naxçıvan bölgəsinin ilk orta əsr abidələrini kompleks şəkildə tədqiq etmiş Vüsalə Qasımlı Albantəpə abidəsində apardığı tədqiqatlar nəticəsində belə bir qənaətə gəlmişdir ki, burada yaşayış təkcə antik dövrlə məhdudlaşmamış, Albantəpə yaşayış yeri ilk orta əsrlər dövründə ən iri kənd tipli yaşayış yerlərindən biri olmuşdur [4, s. 32-33]. Əziz Novruzlu (daha əvvəl Ə.İ.Novruzov) tərəfindən Axura kəndi yaxınlığındakı Qoşatəpə yaşayış yerində aparılmış arxeoloji qazıntı və tədqiqatlar nəticəsində müəyyən olunmuş mədəni təbəqələr və onlardan əldə edilmiş arxeoloji materialların təhlili nəticəsində bu abidədə yaşayışın Son Tunc və Erkən Dəmir dövründən başlayaraq antik dövr daxil olmaqla uzun əsrlər boyu davam etdiyi müəyyən edilmişdir [2, s. 17-18]. Vüsalə Qasımlı isə Qoşatəpə yaşayış yerinin üst təbəqəsindən aşkar edilmiş dulusçuluq məmulatlarının Beyləqan və Gəncəbasar bölgələrinin ilk orta əsr yaşayış yerlərindən aşkar edilmiş müvafiq arxeoloji materialları ilə apardığı müqayisəli təhlilləri və tədqiqatları nəticəsində belə bir qənaətə gəlir ki, Qoşatəpə yaşayış yerində yaşayış ilk orta əsrlər dövründə də davam etmişdir [4, s. 36].

Qoşatəpə yaşayış yerinin yaxınlığındakı digər abidədə, Axura Kültəpəsi yaşayış yerində arxeoloji tədqiqatlar aparmış Əziz Novruzlu və Vəli Baxşəliyev bu yaşayış yerinin antik dövrə, e.ə.III-e.II əsrlər dövrünə aid etmişlər [2, s. 19; 9, s. 18]. Tədqiqatçılar Axura Kültəpəsi yaşayış yerinin yaxınlığında ilk orta əsrlər dövrünə aid qəbir abidələri aşkar edərək tədqiq etmişdilər [2, s. 20; 10, s. 18-19]. aparılmış tədqiqatlar nəticəsində Axura nekropolları antik, ilk orta və inkişaf etmiş orta əsrlər dövrünə aid olunmuşdur [2, s. 20-21]. Bütün bu faktlar Axura yaşayış yerində yaşayışın davamlı olduğunu təsdiq edir.

Şərur rayonu ərazisində ilk orta əsrlər dövrünə aid edilmiş yaşayış yerlərindən biri də Püsyan kəndi yaxınlığında Vəli Baxşəliyev və Əziz Novruzlu tərəfindən 1987-ci ildə qeydə alınmışdır [2, s. 40; 9, s. 409]. Burada 1987-ci ildən etibarən arxeoloji kəşfiyyat və tədqiqat işləri aparılmışdır. Abidədə genişmiqyaslı qazıntı işləri 2007-ci ildə həyata keçirilmişdir [4, s. 63]. Yaşayış yeri tədqiqatçılat tərəfindən e.ə.I-e.I-II əsrlərinə aid edilmişdir [2, s. 40; 9, s. 409]. Vüsalə Qasımlı Püsyan yaşayış yerinidən aşkar edilmiş arxeoloji materialları Qəbələnin, Mingəçevirin, Şamaxının Xınıslı, Qubanın Xucbala, Qusarın Şamiltəpə, Beyləqanın (Örənqalanın), Gəncəbasarın ilk orta əsr yaşayış yerlərindən aşkar edilmiş arxeoloji materiallarla müqayisəli təhillilərini aparmış [4, s. 63-66], bununla da Püsyan yaşayış yerində ilk orta əsrlər dövründə də yaşayışın mövcud olmasını təsdiq etmişdir.

Şahbuz rayonunun Ağbulaq kəndi yaxınlığında 1990-cı ildə Vəli Baxşəliyev tərəfindən qeydə alınmış, burada kəşfiyyat xarakterli qazıntı işləri Vəli Baxşəliyev və Əziz Novruzlu tərəfindən aparılmışdır [4, s. 55-56]. Qızıltapılan yaşayış yeri burada tapılmış maddi mədəniyyət nümunələrinə görə V-VIII əsrlərə aid edilmişdir [2, s. 250]. Rayonun Mahmudoba kəndi yaxınlığında yerləşən Kəhriz yaşayış yeri 1990-cı ildə Vəli Baxşəliyev tərəfindən qeydə alınmış, burada aşkar edilmiş dulusçuluq məmulatlarının təhlili əsasında yaşayış yeri ilk orta əsrlərə, III-VII əsrlərə aid edilmişdir [2, s. 251]. Kəhriz yaşayş yerinin yaxınlığında orta əsrlər dövrünə dair müsəlman qəbirstanlığının olması yaşayış yerində uzun əsrlər boyu davamlı olaraq yaşayışın mövcud olmasını təsdiq edir. Mahmudoba kəndi

yaxınlığında aşkar olunmuş Ordu yurdu adlı digər yaşayış yeri də Vəli Baxşəliyev tərəfindən ilk orta əsrlər dövrünə aid edilmişdir.

Şahbuz rayonunun Yuxarı Remeşin kəndi ərazisində Yarnıx, Qızıl Qışlaq kəndi yaxınlığındakı Dəlmə, I Kələki yaşayış yeri, Kolanı kəndi yaxınlığında yaşayış yerləri 1990-cı ildə, Kolanı kəndi yaxınlığındakı digər Quzey adlı yaşayış yeri 1986-cı ildə Vəli Baxşəliyev tərəfindən qeydə alınmış, erkən orta əsrlər dövrünə aid edilmişdir [2, s. 252-254].

Culfa rayonunun Bayəhməd kəndi yaxınlığında 1991-ci ildə qeyd alınmış II Bayəhməd yaşayış yeri də Vəli Baxşəliyev tərəfindən tədqiq edilərək ilk orta əsrlər dövrünə aid olunmuşdur. Vüsalə Qasımlı bu yaşayış yerindən aşkar edilmiş arxeoloji materiallaır Bərdənin, Gəncəbasarın, Mingəçevirin, Beyləqanın ilk orta əsr yaşayış abidələrindən aşkar edilmiş müvafiq materiallarla müqayisəli təhlilini aparmışdır [4, s. 41-43].

Naxçıvan bölgəsinin ilk orta əsrlər yaşayış yerlərinin qeydə alınmasında, onlarda arxeoloji tədqiqatların həyata keçirilməsində, bütövlükdə tarixi-arxeoloji tədqiqində Vəli Baxşəliyevin, Əziz Novruzlunun, Vüsalə Qasımlının mühüm xidmətləri olmuşdur. Şübhəsiz ki, Naxçıvan bölgəsində yaxın gələcəkdə digər ilk orta əsrlər dövrünə aid yaşayış yerlərinin aşkar edilməsi istisna deyildir. Çünki, əcdadımızın ən qədim zamanlardan sıx və davamlı yaşadığı, zəngin maddi mədəniyyət yaratdığı qədim Naxçıvan torpağında antik dövrə, inkişaf etmiş və son orta əsrlər dövrlərinə aid çoxsaylı yaşayış yerlərinin, abidələrinin mövcud olması antik dövrlə inkişaf etmiş orta əsrlər dövrü arasındakı ilk orta əsrlər dövründə də yaşayışın, sıx məskunlaşmanın olması şübhəsizdir. Belə olan təqdirdə Naxçıvan ərazisində çoxlu sayda ilk orta əsrlər dövrünə dair yaşayış yerlərinin, dini abidələrin olması da şübhə doğurmur.

Naxçıvan bölgəsində diqqəti cəlb edən ən mühüm xristian dini abidəsi olan Qızılvəng Alban monastır kompleksi Naxçıvan şəhərindən 18 km aralıda, Araz çayının sol sahilində yerləşir. Məbədin yerləşdiyi ərazidə qədim qəbirstanlıq mövcud olmuşdur. 1895-ci ildə məbədin yaxınlığında torpaq işləri görülərkən daş qutu qəbirlər aşkar olunmuşdur [4, s. 13]. Qızılvəng məbədi haqqında Albaniya dini memarlığının tədqiqatçısı Gülçöhrə Məmmədova bəhs edərək yazır ki, Naxçıvan Muxtar Respublikası ərazisində digər memarlıq abidələri ilə yanaşı, günbəzli bazilikalar da qorunub saxlanılmışdır. Onlardan biri olan Qızılvəng kilsəsi xüsusi maraq doğurur. Monastır Naxçıvan şəhərindən 15 km cənubda, Araz çayının üstündə olduqca dar sahil zolağından qalxan yüksək və sıldırım dağ yamacında inşa edilmişdir. Vaxtilə monastır kompleksi böyük bir ərazini əhatə etmişdir. Monastır kompleksi bir neçə binadan ibarət olmuşdur [7, s. 277; 12, s. 134-135]. Baş məbəd dörd kvadrat en kəsikli dayaqları və beşüzlü altar apsidası olan günbəzli bazilikadır. Çatma tağlar tağbənd örtüyü və günbəzin hündür barabanını saxlayırdı. Freskaların qalıqları kilsənin interyer tərtibatının zənginliyindən xəbər verir. Qərbi divara iki dayaqlı dəhliz əlavə edilmişdir. Onun örtüyünün mərkəzi kvadrat hissəsinin üstündə nə zamansa zəng qülləsi ucalırmış. Qızılvəng qərb və cənub tərəfdən daş oymalarla və heykəl təsvirlərilə gözəl tərtib edilmiş açırımlarına malikdir. Məbədin xarici görünüşü çox maraq doğurur. Relyefdə tikilmiş məbədin şərq tərəfdəki hündür kürsülüyü (3 metrə qədər) təmiz yonulmuş daş tavalarla üzlənmişdir. Fasadların tərtibatı islam türbələrini xatırladır. Beləliklə, XI-XIV əsrin günbəz memarlığı günbəzli bazilika, günbəzli zal, dörd küncündə kiçik yerləşgələri olan xaçvari-günbəzli kompazisiyalarında tikilmiş kilsələri özündə cəmləşdirir [7, s. 277]. Qeyd edək ki, Alban dini memarlığındakı günbəzli kompazisiyalar yuxarıda qeyd edildiyi kimi, təkcə XI-XIV əsrlərdə deyil, ümumiyyətlə ilk orta əsrlər dövründən mövcuddur. Alban dini memarlığında günbəz, çatma tağlar, tağbəndlər ilk orta əsrlər dövründən vardır. Qızılvəng monastır kompleksi haqqında bəhs edərkən onu qeyd edə bilərik ki, digər Alban monastır kompleksləri kimi ətrafı qala divarları ilə əhatələnmiş bu məbədin memarlıq quruluşu özündə hələ ilk orta əsrlər dövründən mövcud olan ənənəvi Alban dini memarlığının üslubiyatını və elementlərini geniş şəkildə ehtiva etmişdir.

Günbəz memarlığının inkişafı və günbəzin göy qübbəsi kimi əqidə-məna şərhinin formalaşması hələ erkən orta əsrlərdə zal məbəd kompazisiyalarına günbəz əlavə edilməsinə gətirib çıxarırdı. Beləliklə, günbəzli zallar və günbəzli bazilikalar yaranmağa başlayırdı. Erkən orta əsrlərin günbəzli zallarını XI-XIII əsrlərin eynitipli abidələrindən uzunsovluğu, xarici həcmin xaçşəkilli olması, ümumi ikiyamaclı dam örtüyü fərqləndirirdi [6, s. 205].

Mühüm faktlardan biri də monastır komleksinin baş mbədində freskaların olmasıdır, çünki Albaniyada Alban katolikosluğu Moisey Kalankatuklunun Varaz Trdatın Konistantinapola səfərindən sonra, Girdiman yepiskopu Bakurun Alban katolikosu seçilməsindən sonra baş vermiş hadisələrlə bağlı verdiyi məlumatlara görə VII əsrin sonlarında Alban katolikosluğu diofizit cərəyanına keçir. Beləliklə, Alban kilsə memarlığında freskalar meydana çıxır.

1628-ci ildə məbədi tədqiq edən V.M.Sısoyev yazır ki, divarlarda 18, iki böyük daxili sütunda 8, günbəzdə isə 10 dini rəsm (freska) qorunub saxlanılmışdır. V.M.Sısoyevin fikirinə görə monastır V əsrdə inşa olunmuş, ehtimal ki, dağntılara məruz qalmış məbədin binasının qalıqları üzərində XIII əsrdə məbəd inşa edilmişdir. XVII əsrdə isə məbəd yenidən inşa olunmuşdur. Qızılvəng ən maraqlı Alban xrsitian məbədlərindən biridir və onun memarlığı Azərbaycanın müsəlman memarlığının güclü təsirini əks etdirir [12, s. 134-135]. Qeyd edək ki, ümumiyyətlə Azərbaycanın müxtəlif bölgələrində, xüsusilə Qarabağ bölgəsində, Göygöl rayonu ərazisində daha əvvəl, ilk orta əsrlər dövründə inşa edilmiş və uzun əsrlər ərzində dağıntılara məruz qalmış məbədlərin yerində XIII və XVII əsrlərdə Alban xrsistian məbədləri inşa olunmuşdur. Orta əsrlər dövründə Azərbaycanın bir çox feodal dövlətlərinin hökmdarları, Şəmsəddin Eldəniz, Qaraqoyunlu Cahanşah, Şah İsmayıl və başqaları Alban katolikoslarına qayğı göstərmiş, Alban məbədlərinin mülkiyyətinə torpaqlar vermiş, onların mülkiyyətinin vergilərdən azad olunması haqqında fərman vermiş, onları himayə etmişdilər. Qızılvəng monastır kompleksinin əsasının V əsrdə qoyulması fikirinə gəlincə, belə hesaab etmək olar ki, bu doğrudur. Çünki V əsrdə Albaniyada xrsitianlıq daha da möhkəmlənmiş, Sasanilərin dini siyasətinin təzyiqi azalmışdır Digər tərəfdən də Alban Arşakilər sülaləsinin sonuncu hökmdarı III Mömin Vaçaqan xrsitianlığın Albaniyada dövlət səviyyəsində möhkəmlənməsinə xüsusi diqqət yetirmişdir. Alban tarixçisi Moisey Kalankatuklu yazır ki, III Mömin Vaçaqan ölkədə ilin günlərinin sayı qədər məbəd inşa elətdirmişdir [M.Kalankatuklu, III, 19].

Naxçıvan bölgəsinin ilk orta əsr yaşayış yerləri ilə ölkənin digər vilayətləri və onların yaşayış yerləri arasında iqtisadi və mədəni əlaqələr mövcud olmuşdur. Yuxarıda da göstərdiyimiz kimi, Naxçıvan bölgəsinin ilk orta əsr yaşayış yerlərindən əldə olunmuş arxeoloji materialların Albaniyanın digər ilk orta əsr yaşayış yerlərindən aşkar olunmuş materiallarla oxşar xüsusiyyətləri, istehsal xüsusiyyətlərinin bənzərliyi iqtisadi-mədəni əlaqələrin mövcudluğundan xəbər verir. Yazılı mənbələrdə Albaniyanın ilk orta əsrlər dövründə daxili vilayətlərini, o cümlədən də yaşayış yerlərini bir-biri ilə əlaqələndirən ticarət-karvan yollarından biri də Bərdə-Dəbil yolu olmuşdur. Bu yol Uti əyalətindən başlayaraq Uti və Arsak əyalətlərinin ərazisindən keçərək Sünik əyalətinin ərazisinə daxil olur, buradakı ilk orta əsr yaşayış yerlərindən keçərək Arpaçay hövzəsi ilə Dəbil şəhərinə istiqamət almışdır. Şübhəsiz ki, bu yol Dəbil şəhərindən də qərbə doğru uzanmış, Bizans imperiyasının yaşayış yerlərinə gedib çıxmışdır. Bundan başqa Qarabağ və Naxçıvan bölgələrindəki ilk orta əsr yaşayış yerlərini bir-biri ilə əlaqələndirən digər daxili yollar da vardır. Azərbaycanın qədim şəhərləri olan Bərdə və Naxçıvan ilk orta əsrlər dövründə yerləşdikləri bölgələrin inzibati, iqtisadi və mədəni mərkəzləri olmaqla yanaşı, bu mərkəzlər arasında hərtərəfli əlaqələr mövcud olmuşdur. İlk orta əsrlər dövründə ölkənin (Albaniyanın) paytaxtı və Alban katolikosluğunun iqamətgahının yerləşdiyi əzəmətli Bərdə şəhərinin ölkənin bütün bölgələri və şəhərləri ilə əlaqələrinin olması şübhəsizdir. Təbii ki, bu əlaqələr içərisində yaxın qonşu və

ölkənin mühüm iri əyaləti olan Süniklə, onun ərazisindəki yaşayış məntəqələri ilə əlaqələr mühüm olmuşdur.

İlk orta əsrlər dövründə Albaniyanın bir sıra iri və mühüm şəhərlərindən olan Bərdə, Beyləqan, Dərbənd və digər şəhərlər ilə yanaşı Naxçıvan bölgəsinin şəhərləri ərazidə yerləşən cənub-şimal, qərb-şərq ticarətlərində əvəzedilməz rolu olmuşdu. Bu ticarət əlaqələri bölgənin ümum ilk orta əsr tarixi inkişafına təsir göstərən ən proqressiv amil olmuşdu [4, s. 157].

İqtisadi-ticarət əlaqələrinin mövcudluğunu təsdiq edən mühüm fakt arxeoloji materialladır. Naxçıvan və Qarabağ bölgələrindəki ilk orta əsr yaşayış yerlərindən aşkar edilmiş materialların təhlili, xüsusilə də dulusçuluq məmulatlarının istehsal xüsusiyyətlərinin, quruluşlarının, forma və naxışlarının bənzərliyi bu dövrdə sənətkarlıq mübadiləsinin, ticarət əlaqələrinin mövcudluğundan xəbər verir.

Naxçıvan bölgəsində aşkarlanan dulus məmulatları sırasında bəzilərinin Qafqaz, Orta Asiya, Çin, həmçinin Yaxın Şərqin bir çox şəhər yerlərindən, habelə Azərbaycanın Bərdə, Gəncə, Qəbələ, Beyləqan, Goranboy və s. yaşayış yerlərindən aşkarlanan dulus məmulatları ilə oxşarlıq təşkil etməsi, Naxçıvan bölgəsinin yuxarıda adları sadalanan ərazilərlərlə bilavasitə iqtisadi və mədəni əlaqələrdə olmasının göstəricisidir [4, s. 177].

Qarabağdan, ölkə paytaxtı, böyük sənətkarlıq və ticarət mərkəzi Bərdə şəhərindən başlayan və ya burada kəsişib şaxələnən mühüm ticarət-karvan yolları Naxçıvandan keçməsə də yuxarıda qeyd etdiyimiz kimi, ölkənin siyasi, sənətkarlıq, inzibati, dini, mədəni mərkəzi olan Bərdə və Qarabağ bölgəsindəki digər ilk orta şəhərləri ilə Naxçıvan bölgəsinin ilk orta əsr yaşayış məntəqələri arasında ölkədaxili əhəmiyyətə malik ticarət yolları olmuşdur. Bu yollar Bərdə, Amaras, Aluen, Matris, Beyləqan, Ayniana-Yunan kimi ilk orta əsr şəhərləri ilə Naxçıvan bölgəsindəki Naxçıvan, Şərur, Ordubad, Kiran, Gülabə, Vənənd, Qarabağlar kimi məntəqələri biri-biri ilə əlaqələndirmişdir.

İlk orta əsrlər dövründə Albaniyada Sasani sikkələri zərb edilmişdir. Ayrı-ayrı Sasani hökmdarları adından zərb edilmiş sikkərlər şübhəsiz ki, ticarətin genişliyindən, əmətəə münasibətlərinin inkişaf səviyyəsindən xəbər verir. Arxeoloji tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, Albaniyada Sasani şahlarının adlarına Naxçıvanda da draxmalar zərb edilmişdir.

## *Nəticə*

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, Naxçıvan bölgəsinin ilk orta əsrlər dövrü abidələri digər dövr abidələri ilə müqayisədə zəif öyrənilmişdir. Naxçıvan ərazisində ilk orta əsrlər dövrünə dair zəngin abidələrin mövcud olması şübhə doğurmur. Naxçıvan ərazisi ən qədim zamanlardan insanların məskunlaşdığı, əcdadımızın davamlı və sıx şəkildə yaşadığı mühüm bölgələrimizdən biri olmuşdur. Şübhəsiz ki, ilk orta əsrlər dövründə də Naxçıvan ərazisində sıx məskunlaşma və çoxlu sayda müxtəlif tipli yaşayış yerləri mövcud olmuşdur. Diqqəti cəlb edən məsələlərdən biri də ondan ibarətdir ki, Naxçıvan ərazisində ilk orta əsrlər dövrünə dair dini abidələrin aşkar edilməsi və tarixi-arxeoloji baxımdan tədiqiqi də zəifdir. Alban xristian dini abidələrinə Naxçıvan ərazisində az rast gəlinməkdədir. Belə hesab etmək olar ki, Naxçıvan ərazisində ilk orta əsrlər dövründə Alban xristian dini və sosial mədəniyyəti zəif yayılmışdır. Moisey Kalankatuklu Alban yepiskopluqları haqqında bəhs edən Naxçıvanın daxil olduğu Sünik əyalətində bir yepiskopluğun olması haqqında məlumat verir. Hansı ki, Alban müəllifi Albaniyanın digər əyalətlərində bir neçə yeparxiyanın fəaliyyət göstərmisi haqqında bəhs etmişdir. Bu məlumatlardan belə bir nəticəyə gəlmək olar ki, Naxçıvan ərazisində dini baxımdan Atropatena, daha sonralar isə Sasani təsiri daha güclü olmuşdur. Buna görə də Naxçıvan ərazisində ilk orta əsrlər dövrünə dair Alban dini məbədlərinə, onların qalıqlarına son dərəcə az rast gəlinmişdir.

ƏDƏBİYYAT

1. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya Press, 2006, 416 s.
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı, Elm, 2008, 301 s.
3. Xəlilov X.D. Qarabağın elat dünyası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 119 s.
4. Qasımlı V.A. Naxçıvan III-IX əsrlərdə (tarixi-arxeoloji tədqiqat), Bakı: Elm, 2013, 256 s.
5. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 262 s.
6. Məmmədova G.H., Hacıyeva S.X. Azərbaycan memarlıq tarixi. Qədim və erkən orta əsrlər dövründə Azərbaycan memarlığı, I cild. Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013, 268 s.
7. Məmmədova G.H., Məmmədova Z.G. Azərbaycan memarlıq tarixi. Orta əsrlər memarlığı (VIII-XIV əsrlər), II cild. Bakı, "Şərq-Qərb" nəşriyyat evi, 2013, 316 s.
8. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Ziya Bünyadovundur.), Bakı: Elm, 1993, 270 s.
9. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008, 522 s.
10. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı, Elm, 1993, 183 s.
11. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı: "Müəllim" nəşriyyatı, 2006, 148 s.
12. Мамедова Г.Г. Зодчество Кавказской Албании. Баку, Чашыоглу, 2004, 224 стр.

УДК 902

*Д.В.Багирзаде*
*Гянджинский Государственный Университет*

## ИЗУЧЕНИЯ РАННЕСРЕДНЕВЕКОВЫХ ПАМЯТНИКОВ НАХИЧЕВАНЬСКОЙ ОБЛАСТИ ОТНОСИТЕЛЬНО ИСТОРИКО-АРХЕОЛОГИЧЕСКОГО АСПЕКТА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Кавказская Албания, Нахичевань, раннесредневековые поселения, историко-археологические исследования

Нахичеванськая область, древняя земля Азербайджана, была важной частью Албании в раннем средневековье. В раннем средневековье в регионе была провинция, игравшая важную роль в экономической, политической и культурной жизни страны. Нахичеванськая область находилась в пределах албанской провинции Сюник. Эта провинция Албании имела тесные экономические, торговые и культурные связи с другими провинциями страны в раннем средневековье. Албанский историк Моисей Каланкатуклу сначала описывает Сюник как независимую административную единицу, но позже упоминает его как одну из провинций Албании. После окончания правления Албанских Аршаков, в период Сасанидов, в Албании было три наместнических центра и территория, управляемая марзбаном, сидящим в этом центре, одним из которых былонаместничество Сюник, с городами Нахичевань и Дабиль в качестве центров.

Населенные пункты периода раннего средневековьяа на территории Нахичевани были выявлены в поселениях у села Хавуш Шарурского района, Албантепе у села Ахура, Ахуринская Кюльтепе, Пусяни Гошатапа. Кроме того, археологические материалы раннего средневековья обнаружены в поселении Баяхмед II у села Баяхмед Джульфинского района, в поселении Зогала у села Милах, в поселении Йейджа у села Салтах, в поселении Коласу у села Лакатаг. К раннему средневековью относятся одноименное поселение у села Кулус на территории Шахбузского района и памятник

Гызылтапан у села Агбулаг. Вели Бахшалиев, Азиз Новрузлу, Вусала Гасымлы оказали важные услуги в выявлении раннесредневековых поселений Нахичеваньского края, в проведении там же археологических исследований, в также в историко-археологических исследованиях в целом.

UDC 902

*J.V.Baghirzade*
*Ganja State University*

## REGARDING THE HISTORICAL AND ARCHAEOLOGICAL STUDY OF THE EARLY MEDIAGE MONUMENTS OF THE NAKHICHEVAN REGION

*SUMMARY*

*Key words:* Caucasian Albania, Nakhichevan, early medieval settlements, historical and archaeological research

The Nakhichevan region, the ancient land of Azerbaijan, was an important part of Albania in the early Middle Ages. In the early Middle Ages, the region had a province that played an important role in the economic, political and cultural life of the country. The Nakhichevan region was within the Syunik province of Albania. This province of Albania had close economic, trade and cultural ties with other provinces of the country in the early Middle Ages. Albanian historian Moses Kalankatuklu first describes Syunik as an independent administrative unit, but later mentions it as one of the provinces of Albania. After the end of the reign of the Albanian Arshaks, during the Sassanid period, there were three governorship centers in Albania and the territory ruled by the marzban sitting in this center, one of which was the governorship of Syunik, with the cities of Nakhichevan and Dabil as centers.

Settlements of the early Middle Ages on the territory of Nakhichevan were identified in the settlements near the village of Khavush in the Sharur region, Albantepe near the village of Akhura, Akhura Kultepesi, Pusyan and Goshatapa. In addition, archaeological materials of the early Middle Ages were found in the settlement of Bayakhmed II near the village of Bayakhmed of the Julfa region, in the settlement of Zogala near the village of Milakh, in the settlement of Yeyja near the village of Saltakh, in the settlement of Kolasu near the village of Lakatag. The settlement of the same name near the village of Kulus in the Shahbuz region and the Gyzyltapan monument near the village of Agbulag belong to the early Middle Ages. Veli Bakhshaliyev, Aziz Novruzlu, Vusala Gasimly rendered important services in identifying the early medieval settlements of the Nakhichevan region, in conducting archaeological research there, as well as in historical and archaeological research in general.

***Daxil oldu: 16.09.2024-cü il***